# "XƏZƏR"LİLƏR YAY İSTİRAHƏTİNDƏ

*Mənim əzizlərim!*

Nəhayət, dərs ili başlandı. Lap darıxmışdım sizlər üçün. "Xəzər"in pilləkənlərini, uzun koridorlarını, sinif otaqlarını sükut içində görəndə darıxıram. Elə istəyirəm ki, tələbələrin səsini eşidim, hamı ilə hal-əhval tutum. Şükürlər olsun, hamı sağ-salamatdır!



Yayda bunu etmək olmur, hərə bir tərəfə gedir, kimin imkanı varsa, uzaqlara gedir, imkanı olmayan elə doğma elində, öz yurdunda dincəlir. Mənim də nə yaxşı ki,Göyçayda ömür-gün yoldaşımdan qalan bir balaca həyətim var. Elə hey hamını dəvət edirəm bura, balaca olsa da, rahatlıq tapır burda insan.

Bu yay Kəmalə xanım gəldi, yay mövsümü başlandı. Qonşularım dedi ki, elə bil bütün Göyçay canlandı. Ağaclar, güllər-çiçəklər də sanki sevinirdilər ki, burda həyat var. Göyçayı gəzdik. Qəbələnin gözəl mənzərəsini Kanat yolundan izlədik və hər dəfə sizləri arzuladıq yanımızda.

Kəmalə xanım gedəndən sonra çox çəkmədi ki, Roza xanım qonağım oldu. O, söhbətdən yorulmur. Hər gün samovar çayı, gözəl yay axşamları.

Bir axşam lap möcüzə oldu. "Xəzər"in keçmiş tələbəsi Mürsəl və onun atası Rövşən müəllim öz tarı ilə qonağımız oldu. Təsəvvür edin, mən, Roza xanım, bacım Nərgiz, Türkiyədə və Bakıda oxuyan bir-iki tələbə dostlar, bir də Rövşən müəllimin çox məharətlə çaldığı tar və sevimli mahnılar.

İlk sual: "Nə çalım?" oldu. Biz dedik: "Oxu, tar". Bu tar necə oxudu! Kaş siz bizimlə olaydınız! Ətraf sanki donmuşdu. Qonşular da eyvanda, küçədə, çəpər dibində, pəncərədə oturub dinləyirdilər. Bədirlənmiş ay, ağaclar, güllər, yerdəki çəmənlik, quşlar...

Xəyalım getdi gənclik illərinə, sonra "Xəzər"in lap ilk günlərinə; gənc idik, yorulmadan xoş əhval-ruhiyyə ilə çalışırdıq, övladlarımız da məktəbli idilər, yanımızda idilər. Sonra hamısı böyüdülər, quş kimi uçdular, ayrıldılar bizdən.

Oxu, tar! Roza xanıma baxdım. Gözlərində yaş damcıları donub qalmışdı. Görəsən, kimi xatırlayır? Bacım Nərgizin üzündə təbəssüm, gözlərində parıltı: yəqin ki, dünyaya yenicə qədəm qoyan nəvəsini xatırlayır. Tələbələr min-bir xəyalla bəlkə də sevib-sevdikləri anları yada saldılar.

Oxu, tar! Sən bizi lap uzaqlara apardın! İndi isə "Aylı gecələr" səsləndi:

*"Gecə sakit çay axır*
*Lal sulardan ay baxır*
*Ey könül, çıx eyvana..."*

Çalınan melodiyaları zümzümə etdikcə tarzən sanki cuşə gəlir, tarı sinəsinə basıb dayanmadan çalırdı... "Dəydi saçlarıma bahar küləyi, nazəndə sevgilim yadıma düşdü, hərənin payına bir gözəl düşər, sən də təkcə mənim yadıma düşdün..."



Görəsən, burda oturan gənclərin payına kim düşəcək? Onu xoşbəxt və ya bədbəxt edəcək?

Mahnılar dəyişir və hər bir yeni mahnını biz oxuduqca tarzən təəccüblənirdi:

*"Sən, mən, bir də xatirələr, həmin küçə,*
*həmin şəhər,*
*Bilirəm ki, hara getsəm, yenə məni izləyirsən*
*O küçənin döngəsində, o ağacın kölgəsində*
*Yenə məni gözləyirsən..."*

Tarzən dayandı, sükutu pozdu: "Məni heyrətə gətirdiniz. Siz musiqini nə gözəl duyursunuz, necə yaxşı oxuyursunuz!" Mən cavab verdim: "Heyif ki, gecdir. Yoxsa müəllimliyi atıb müğənni olardıq, toylara gedərdik".

Roza xanım: - "Yox, elə müəllimlik yaxşıdır". Mən razılaşdım, nə etməli? Roza xanım razı olmadı mənim müğənni olmağıma.

Tarın səsi yenə də ətrafı bürüdü. Yenə də düşüncələrə qərq olduq. Tezliklə yay qurtaracaq, bağlar boşalacaq və hamı deyəcək:

*"Yenə o bağ olaydı, yenə yığışaraq siz o bağa köçəydiniz..."*

Bax, belə, mənim əzizlərim, yeni dərs ilində səbriniz tükənməsin, işləyin, danışın, gülün, yumor hissinizi artırın, çünki yumor cavan qalmağa kömək edir, canınız sağ olsun, gələn yay günlərinə qədər özünüzü və yaxınlarınızı qoruyun!

*Sizi sevən*

**Firəngiz xanım**

## İNSANLARI SEVİN!

*Canım Firəngiz xanım!*

Məktubunuz məni lap uyğun olmayan bir zamanda "yaxaladı". Bir tərəfdən mənən hazır olmadığım payızın gəlişi, çiskinli, yağışlı hava, digər tərəfdən həftələrdi beynimdə "gəzişən" duyğusal fikirlər...

Çox təsirləndim. Göz yaşlarım yanaqlarımdan yavaş-yavaş dayanmadan süzülməyə başladı... Otağa girən hər tələbə maraq içində mənə baxır. Bəlli ki, hamını mənim göz yaşlarımın səbəbi maraqlandırırdı... Maraqlandırsın, yetər ki, səbəbini sormasınlar... Sorsalar gərək konkret bir cavab verim. Axı mənim cavabım konkret deyil və ola da bilməz...

Gözümün qabağında canlanan xatirələri konkret və qısa cavaba mən necə sığışdıra bilərəm ki?! Axı o xatirələr ömrümün yarısından çoxunu əhatə edir və o xatirələrə mənim gəncliyimdən, tələbəlik illərimdən, ən əziz və ən sevdiyim ilk müəllimlərimdən, iş həyatımdan pay düşür!

Həmin xatirələrdə sizin və Roza xanımın yeri bam-başqadır. Siz elə bir "kök salmısınız" ki, burda kimsənin həmin yerə iddia etməyə haqqı belə yox! Sizə mən çox fərqli: saf, səmimi, pak və müqəddəs hisslərlə bağlıyam.

Bəlkə də inandırıcı səslənməyəcək, amma sizə olan sevgimi bir misalla izah edəcəyəm.

Bəzən olur ki, işə gələndə və işdən gedəndə sizinlə yol yoldaşı oluruq. O dəqiqə əlinizdəki çantaları aparmaqda yardım etməyi rica edirəm, amma əslində, imkanım olsa, sizi utanmadan qucağıma alıb götürmək istərəm. Budur, mənim Sizə olan sevgim bu qədər böyük və gözəldir!

Xoşbəxtəm. Xoşbəxtəm ona görə ki, illərdir Sizinlə iş yoldaşı olmaq, sizinlə ən yaxın sirdaş kimi oturub dərdləşmək imkanım var...

Həyat belə gətirib ki, nə bacım, nə bibim, nə xalam var. Heç qızım da olmadı... Əslində, heç yaxın rəfiqəm də olmayıb. Çox ehtiyac da duymamışam, çünki hamısını mənə həyatımdan çox sevdiyim anam əvəz edib və edir. (Allah analarımızı bizə çox görməsin, dünyadan köçənlərə də rəhmət eləsin). Xeyli böyümüşəm, problemlərim də "böyüyüb". Bəzən anama deyə bilmədiyim dərdimi Roza xanıma danışıram, qucaqlaşıb bir yerdə ağlayırıq, amma sonra da onu "dərd ortağım" elədiyimə görə özümü yeyib-yeyib bitirirəm.

Məqamdır, Roza xanım, Sizdən üzr istəyirəm, bir daha sizi üzməyəcəyimə söz verirəm. Amma şərtim var. Siz də məni və Sizi sevənləri üzməyəcəksiniz. Hər xırda məsələyə görə əsəbiləşməyəcəksiniz, qidalanmanıza, istirahətinizə, səhhətinizə diqqət yetirəcəksiz. Eləcə də Siz, Firəngiz xanım. Bizim sizə hələ çox, çox ehtiyacımız var.



Yeni dərs ili ilə bağlı tövsiyələriniz var, əzizim Firəngiz xanım!

Səbriniz tükənməsin, işləyin, danışın, gülün deyirsiz. Nə gözəl! Bütün bunlara təkan olan bilirsiz nədir?! Sevgi! İnsanlara, canlılara, Vətənə, torpağa, təbiətə, bəşəriyyətə və s. qarşı olan sevgi...

Hamı mənə çox gülərüz, pozitiv olduğumu söyləyir. Başqa cür ola bilərmi? Axı mən SEVİRƏM! İnsanları, həmkarlarımı, tələbələrimi sevirəm və nəhayət yayı sevirəm...

*Hörmətlə,*

tələbəniz **Zərifə**